AZƏRBAYCAN RESPUBLİKASININ
ENERGETİKA NAZİRLİYİ

# ƏMR

№ 38

**Bakı şəhəri** "10" noyabr 2017 il

**"Azərbaycan Respublikasında kommunal xidmətlərin (elektrik və istilik enerjisi, su və qaz) inkişafına dair Strateji Yol Xəritəsi"nin icrasının təmin edilməsi barədə**

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 06 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kommunal xidmətlərin (elektrik və istilik enerjisi, su və qaz) inkişafına dair Strateji Yol Xəritəsi"nin (bundan sonra - Strateji Yol Xəritəsi) icrasını təmin etmək məqsədilə

**ƏMR EDİRƏM:**

1. Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, Energetika Nazirliyi, İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Əmlak Məsələləri Dövlət Komitəsi, Tarif (qiymət) Şurası, Dövlət Neft Şirkəti, "Azərenerji" ASC, "Azərişıq" ASC, "Azərsu" ASC və "Azəristiliktəchizat" ASC-nin nümayəndələrindən ibarət aşağıdakı tərkibdə İşçi Qrupu yaradılsın:

**İşçi Qrupunun sədri:**

| | |
|---|---|
| Gülməmməd Cavadov | - Azərbaycan Respublikası energetika nazirinin müavini |

**İşçi Qrupunun sədr müavinləri:**

| | |
|---|---|
| Rafiq Əliyev | - Azərbaycan Respublikası Energetika Nazirliyinin İqtisadiyyat, elm və innovasiya şöbəsinin müdiri |

| | |
|---|---|
| Fazil Nağıyev | - Azərbaycan Respublikası Energetika Nazirliyinin Dövlət proqramlarının hazırlanması və icrasına nəzarət şöbəsinin müdiri |

**İşçi Qrupunun üzvləri:**

| | |
|---|---|
| Aqil Quliyev | - Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Nəzarət və qiymətləndirmə şöbəsinin müdiri |
| Rafiq İbrahimov | - Azərbaycan Respublikası Energetika Nazirliyinin Lisenziya və xüsusi icazələr şöbəsinin müdiri |
| Elxan Həşimov | - Azərbaycan Respublikası Energetika Nazirliyinin Enerji siyasəti və yanacaq-enerji resursları şöbəsinin müdiri |
| Amil Mürsəliyev | - Azərbaycan Respublikası Energetika Nazirliyinin Elektroenergetika şöbəsinin müdiri |
| Xalidə Məsimova | - Azərbaycan Respublikası Energetika Nazirliyinin Enerji səmərəliliyi, alternativ və bərpa olunan enerji mənbələri şöbəsinin müdiri |
| İbrahim Ağayev | - Azərbaycan Respublikası Energetika Nazirliyinin Hüquqi münasibətlər şöbəsinin müdiri |
| Cəfər Hüseynov | - "Dövlət Enerji Nəzarəti" İdarəsinin rəisi |
| Hacıqulu Sadıqov | - "Dövlət Qaz Nəzarəti" İdarəsinin rəisi |
| Elvin Camalov | - Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Mənzil-kommunal siyasəti şöbəsinin müdir müavini |
| Eldəniz Orucov | - Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Vergi siyasəti və gəlirlər şöbəsinin sektor müdiri |
| Kamil Həsənov | - Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Dövlət Məşğulluq Xidmətinin Yerli orqanlarla və sosial tərəfdaşlarla iş sektorunun müdiri |
| Yalçın Camalov | - Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin Strateji özəlləşdirmə və investisiyaların cəlb edilməsi şöbəsinin müdiri |

| | |
|---|---|
| Ceyhun Nəcəfov | - Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının katibinin müavini |
| Cəmil Məlikov | - Azərbaycan Respublikası Energetika Nazirliyinin tabeliyində "Alternativ və bərpa olunan Enerji mənbələri üzrə Dövlət Agentliyi" publik hüquqi şəxsin sədr müavini |
| Bəhram Hüseynov | - Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Geologiya və geofizika məsələləri üzrə vitse-prezidenti |
| Yaşar Lətifov | - Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Yataqların işlənməsi üzrə vitse-prezidenti |
| Hicran Əlizadə | - "Azərenerji" ASC-nin Texniki istehsalat şöbəsinin rəis müavini |
| Valeh Nəsibov | - "Azərenerji" ASC-nin "Azərbaycan Elmi-Tədqiqat və Layihə-Axtarış Energetika Institutu" MMC-nin direktor müavini |
| Vüsal Qənbərov | - "Azərişıq" ASC-nin Texniki departament direktorunun I müavini |
| İlham Mirzəliyev | - "Azəristiliktəchizat" ASC -nin sədr müavini |
| Rafiq Əliyev | - "Azəristiliktəchizat" ASC -nin Abonent və Müştəri xidmətlərinin rəisi |
| Faiq Kazımov | - "Azərsu" ASC-nin sədrinin müşaviri-hüquq departamentinin rəisi |

2. İşçi Qrupuna tapşırılsın:

2.1. İllik iş proqramlarının hazırlanmasını təmin etsin.

2.2. Strateji Yol Xəritəsi üzrə işlərin keyfiyyətlə və sürətli görülməsi məqsədilə zərurət yarandığı halda yerli və beynəlxalq mütəxəssislərin icra prosesinə cəlb olunmasını təmin etsin.

2.3. Strateji Yol Xəritəsinin icra vəziyyətinə dair monitorinq və qiymətləndirməni həyata keçirsin.

2.4. Strateji Yol Xəritəsinin icra vəziyyətinə dair məlumatı mütəmadi olaraq Azərbaycan Respublikasının energetika nazirinə təqdim etsin.

2.5. İqtisadi İslahatlar və Kommunikasiya Mərkəzi arasında koordinasiyalı fəaliyyətin təşkilini təmin etsin.

3. Strateji Yol Xəritəsinin 10-cu hissəsində nəzərdə tutulan Tədbirlər Planına uyğun olaraq tədbirlərin icrası üzrə icraçı şöbələr və idarələr müəyyən edilsin.

4. Hesabatların hazırlanması:

4.1. Strateji Yol Xəritəsinin icra vəziyyətinə dair monitorinq və qiymətləndirmə hesabatlarının hazırlanması Energetika Nazirliyinin Dövlət proqramlarının hazırlanması və icrasına nəzarət şöbəsi tərəfindən həyata keçirilsin.

4.2. Strateji Yol Xəritəsinin icrası ilə bağlı hesabatların hazırlanması zamanı Azərbaycan Respublikası Energetika Nazirliyinin aidiyyəti şöbələri tərəfindən zəruri məlumatları Azərbaycan Respublikası Energetika Nazirliyinin Dövlət proqramlarının hazırlanması və icrasına nəzarət şöbəsinə təqdim olunması təmin edilsin.

4.3. Azərbaycan Respublikası Energetika Nazirliyinin Dövlət proqramlarının hazırlanması və icrasına nəzarət şöbəsi hər rüb bitdikdən sonra 10 gün müddətində İşçi Qrupun iclaslarını və hər rübdə görülmüş işlərə dair hesabatın müzakirəyə çıxarılmasını təşkil etsin və müzakirələr zamanı səsləndirilən rəy və təklifləri nəzərə alaraq hesabatların vaxtında hazırlanmasını təmin etsin.

5. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, Energetika Nazirliyi, İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi, Ədliyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Əmlak Məsələləri Dövlət Komitəsi, Tarif (qiymət) Şurası, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Dövlət Neft Şirkəti, Azərbaycan Respublikasının Energetika Nazirliyinin tabeliyində "Alternativ və bərpa olunan Enerji mənbələri üzrə Dövlət Agentliyi" publik hüquqi şəxs, "Azərenerji" ASC, "Azərişıq" ASC, "Meliorasiya və Su Təsərrüfatı" ASC, "Azərsu" ASC, "Azərbaycan Respublikasının Prezidenti yanında Mənzil İnşaat Dövlət Agentliyi", "Azəristiliktəchizat" ASC, Azərbaycan Respublikasının Milli Elmlər Akademiyası, "Azalternativenerji" MMC-nin nümayəndələrindən ibarət Strateji Yol Xəritəsinin prioritetləri üzrə Alt İşçi Qruplarının yaradılması təmin edilsin.

6. Alt İşçi Qruplarında iştirak edən Energetika Nazirliyinin müvafiq şöbəsinin əməkdaşları Strateji Yol Xəritəsinin Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlərin aidiyyəti qurumlar tərəfindən icra vəziyyətinin öyrənilməsini təmin etsin, Alt İşçi Qruplarının iclaslarını təşkil etsin və İşçi Qrupuna görülən işlərlə bağlı mütəmadi olaraq məlumat versin.

7. Ümumi şöbə (E. Rzayeva) bu əmrin surətini Nazirliyin şöbələrinə, Dövlət Qaz Nəzarəti və Dövlət Enerji Nəzarəti İdarələrinə və aidiyyəti qurumlara çatdırılmasını təmin etsin.

8. Əmrin icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Əsas:** Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 06 dekabr tarixli 1138 nömrəli Fərmanı və Azərbaycan Respublikası Prezidenti Administrasiyasının 2017-ci il 26 oktyabr tarixli 2/893 nömrəli məktubu.

**Nazir** **Pərviz Şahbazov**